# İstehlakçıların hüquqlarının müdafiəsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikasının ərazisində istehlakçılar üçün bərabər şərait yaradılması məqsədi ilə alqı-satqı prosesində, iş görülməsində və xidmət göstərilməsində istehlakçı ilə istehsalçı, satıcı və icraçı arasında münasibətlərin eyni cür tənzimlənməsinin, *istehlakçıların hüquqlarının müdafiəsinin ümumi hüquqi, iqtisadi və sosial əsaslarını, habelə əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsinin hüquqi* əsaslarını və mexanizmini müəyyənləşdirir. [1]

Qanun BMT-nin Baş Assambleyası tərəfindən qəbul edilmiş "İstehlakçıların maraqlarını müdafiə etmək üçün rəhbər prinsiplər" əsasında işlənmiş və Azərbaycan Respublikasında belə münasibətlərin dünya təcrübəsinə uyğunlaşdırılmasına yönəldilmişdir.

### I fəsil
### ÜMUMİ MÜDDƏALAR

Maddə 1. **Əsas anlayışlar**

Bu Qanunda istifadə edilən anlayışlar:

**istehlakçı** — şəxsi tələbatını ödəmək məqsədi ilə mal, iş və xidmətlərdən istifadə edən, onları alan, sifariş verən, yaxud almaq və ya sifariş vermək niyyəti olan şəxs;

**istehsalçı** — mülkiyyət formasından və təşkilati-hüquqi formasından asılı olmayaraq satış üçün mal istehsal edən müəssisə, idarə, təşkilat və ya sahibkar;

**icraçı** — iş görən, yaxud xidmət göstərən müəssisə, idarə, təşkilat və ya sahibkar;

**satıcı** — alğı-satqı əməliyyatı aparan, mal satan müəssisə, idarə, təşkilat və ya sahibkar;

**normativ sənəd** — malların (işlərin, xidmətlərin) keyfiyyətinə və təhlükəsizliyinə Azərbaycan Respublikası qanunvericiliyinə uyğun məcburi tələbləri müəyyənləşdirən dövlət standartları, farmakoloji, sanitariya və tikinti normaları, qaydaları və digər sənədlər;

**qüsur** — malın (işin, xidmətin) normativ sənədlərin tələblərinə, müqavilə şərtlərinə, yaxud irəli sürülən başqa tələblərə, habelə icraçı və ya satıcının mal (iş, xidmət) haqqında verdiyi məlumata uyğunsuzluğu;

**mühüm qüsur** — maldan (işdən, xidmətdən) onun məqsədli təyinatına müvafiq surətdə istifadə olunmasını qeyri-mümkün və ya yolverilməz edən, istehlakçı üçün aradan qaldırıla bilməyən, aradan qaldırılması üçün çoxlu əmək və vaxt məsrəfi tələb edən, malı (işi, xidməti) müqavilədə nəzərdə tutulduğundan başqa şəklə salan, ya da aradan qaldırıldıqdan sonra yenidən üzə çıxan qüsur;

**uyğunluq sertifikatı (sertifikat)** — sertifikatlaşdırma sisteminin qaydaları üzrə sertifikatlaşdırılmış *malın (xidmətin, işin), prosesin, idarəetmə sisteminin və işçi heyətinin müvafiq standartda, texniki reqlamentdə və digər normativ hüquqi aktda müəyyən olunmuş tələblərə* uyğunluğunu təsdiq etmək üçün verilmiş sənəd;

**uyğunluq nişanı** — *malın (xidmətin, işin), prosesin, idarəetmə sisteminin və işçi heyətinin müvafiq standartda, texniki reqlamentdə və digər normativ hüquqi aktda müəyyən olunmuş tələblərə* uyğunluğunu

göstərən, sertifikatlaşdırma sisteminin qaydalarına uyğun verilən və tətbiq edilən, müəyyən olunmuş qaydada qeydiyyata alınan nişandır;[2]

**malın (işin, xidmətin) təhlükəsizliyi** — maldan (işin, xidmətin nəticələrindən) istifadə edilməsinin, onun saxlanmasının, daşınmasının, işlədilməsinin adi şəraitində və ya işin görülməsi (xidmət göstərilməsi) prosesində istehlakçının həyatına, sağlamlığına, əmlakına, habelə ətraf mühitə zərər vurulmasının istisna olunması;

**zəmanət müddəti** — müvafiq normativ sənədlərdə nəzərdə tutulmuş zəmanət öhdəliklərinin qüvvədə olduğu müddət.

**nəzarət markası** — audiovizual əsərin, fonoqramın, kompyuter proqramının, məlumat toplusunun, kitabın nüsxələrinin və digər müəlliflik və əlaqəli hüquq obyektlərinin müəlliflik hüququ və əlaqəli hüquqlara əməl edilməklə hazırlandığını (istehsal olunduğunu), həmçinin satışı üçün müvafiq dövlət orqanından razılığın alınması tələb olunan malların, məmulatların və məlumat materiallarının satışına belə razılığın verilməsini təsdiq edən və həmin nüsxələri yaymaq hüququ verən, nüsxələrə yapışdırılan hərf-rəqəm kodu və holoqrafik müdafiə vasitəsi olan və birdəfəlik istifadə üçün nəzərdə tutulan vahid nümunəli xüsusi nişan;[3]

***əhalinin ərzaq təhlükəsizliyi*** *- ölkə əhalisinin sağlamlığı və fəaliyyəti üçün vacib olan qida məhsullarına tələbatının təmin edilməsi məqsədi ilə dövlətin həyata keçirdiyi iqtisadi, hüquqi və təşkilati tədbirlər sistemi.*[4]

M a d d ə 2. **İstehlakçıların hüquqlarının müdafiəsi haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

İstehlakçıların hüquqlarının müdafiəsi haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Mülki Məcəlləsindən, *"Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanunundan,* bu Qanundan və bu Qanuna müvafiq qəbul edilmiş digər normativ-hüquqi aktlardan ibarətdir.[5]

Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində müəyyənləşdirilmiş qaydalar bu Qanunda nəzərdə tutulanlardan fərqli olarsa, beynəlxalq müqavilələrin qaydaları tətbiq edilir.

*Ələt azad iqtisadi zonasında istehlakçıların hüquqlarının müdafiəsi sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.*[6]

## II fəsil
## İSTEHLAKÇILARIN HÜQUQLARI

M a d d ə 3. **İstehlakçıların hüquqları**

Azərbaycan Respublikası ərazisində istehlakçılar aşağıdakı hüquqlara malikdir:

malların (işlərin, xidmətlərin) və onların istehsalçısının, icraçısının və satıcısının sərbəst seçilməsinə;

istehlak etdikləri malların (işlərin, xidmətlərin) lazımi keyfiyyətdə olmasına;

malların (işlərin, xidmətlərin) təhlükəsizliyinə;

malların (işlərin, xidmətlərin) miqdarı, çeşidi və keyfiyyəti haqqında dolğun və düzgün məlumat əldə etməyə;

qanunvericilikdə nəzərdə tutulan hallarda, lazımi keyfiyyəti olmayan, habelə insanların sağlamlığına, həyatına təhlükəli olan malların (işlərin, xidmətlərin) vurduğu zərərin ödənilməsinə;

öz hüquqlarının və qanuni mənafelərinin müdafiəsi üçün səlahiyyətli dövlət orqanlarına və məhkəməyə müraciət etməyə;

ictimai təşkilatlarda (istehlakçılar birliyində) birləşməyə.

M a d d ə 4. **Zəmanətli istehlak səviyyəsi**

Zəmanətli istehlak səviyyəsi aşağıdakı formalarda təmin edilir:

hər bir istehlakçının azad şəkildə mal almasına zəmanət olmadığı hallarda, malların normalaşdırılmış formada bölünməsinin tətbiqi ilə;

vətəndaşlara kompensasiya ödənişləri, müxtəlif müavinət və güzəştlər verməklə.

M a d d ə 5. **İstehlakçının malların (işlərin, xidmətlərin) lazımi keyfiyyətdə olmasına hüququ**

1. İstehlakçı satıcıdan (istehsalçıdan, icraçıdan) alınmış malın (görülmüş işin, göstərilmiş xidmətin) keyfiyyətinin normativ sənədlərə, müqavilə şərtlərinə uyğunluğu barədə və həmçinin mal (iş, xidmət) haqqında satıcının (istehsalçının, icraçının) təqdim etdiyi məlumata cavab verməsini tələb etmək hüququna malikdir.

2. İstehlakçıların həyatının, sağlamlığının və əmlakının, habelə ətraf mühitin təhlükəsizliyinə dair mala (işə, xidmətə) aid tələblər normativ sənədlərlə müəyyən edilir.

Ayrı-ayrı mal qrupları (işlər, xidmətlər) üçün yuxarıda göstərilən tələblər Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilir.

3. Satıcı (istehsalçı, icraçı) istehlakçıya keyfiyyəti normativ sənədlərə, müqavilə şərtlərinə və həmçinin mal (iş, xidmət) haqqında istehsalçının (icraçının) təqdim etdiyi məlumata uyğun olan mal verməlidir.

Azərbaycan Respublikası ərazisinə idxal olunmuş malların (işlərin, xidmətlərin) lazımi keyfiyyətini təsdiq edən, qanunvericiliklə nəzərdə tutulmuş sənəd olmalıdır.

4. İstehsalçı (icraçı) normativ sənəddə nəzərdə tutulan və ya istehlakçı ilə müqavilə əsasında malın (görülən işin, xidmətin nəticələrinin) xidmət müddəti ərzində, belə müddətin olmadığı halda isə 10 il müddətində təyinatı üzrə istifadə edilməsinə təminat verməlidir.

İstehsalçı, mallara texniki xidməti və onların zəmanətli təmirini, habelə texniki təmir və xidmət göstərən təşkilatlar üçün lazım olan həcmdə və çeşiddə ehtiyat hissələri ilə təchizini bütün istehsal müddəti ərzində, mal (iş, xidmət) istehsaldan çıxarıldıqdan sonra isə xidmət müddəti ərzində, bu müddət nəzərdə tutulmayan hallarda isə 10 il ərzində təmin etməlidir.

M a d d ə 6. **Zəmanət öhdəlikləri**

1. İstehsalçı (icraçı) malın (işin, xidmətin), həmçinin komplektləşdirici məmulatların qanunvericilikdə nəzərdə tutulan zəmanət müddəti ərzində, bu müddətlərin olmadığı hallarda isə müqavilə ilə müəyyənləşdirilmiş qaydada normal işini (tətbiqini və istifadəsini) təmin edir.

Komplektləşdirici məmulatların zəmanət müddəti qanunvericilikdə və ya müqavilədə ayrı cür göstərilməyibsə, malın (işin, xidmətin) özünün zəmanət müddətindən az olmamalıdır.

2. Zəmanət müddəti malın (işin, xidmətin) pasportunda və ya nişanlama kağızında (yarlıqda), yaxud mala (işə xidmətə) əlavə olunan digər sənəddə göstərilir.

Tez xarab olan və insanların sağlamlığına, həyatına və əmlakına, habelə ətraf mühitə təhlükə kəsb edən *qida* məhsullarının, dərmanların, ətriyyat-kosmetika vasitələrinin, kimya məhsullarının və başqa malların (işlərin, xidmətlərin) üzərində (qablarında) və ya onlara əlavə edilən müvafiq sənədlərdə yararlılıq müddəti göstərilməlidir. [7]

Yararlılıq müddəti ötmüş malların satışı qadağan edilir.

Zəmanət müddətləri əgər alqı-satqı müqaviləsində ayrı müddət nəzərdə tutulmayıbsa, malın istehlakçıya verildiyi məqamdan, yararlılıq müddətləri isə hazırlandığı gündən hesablanır. [8]

3. İstehlakçı satıcı (istehsalçı, icraçı) qarşısında zəmanət müddəti müəyyən edilməmiş mallarda aşkar olunmuş qüsurlar barədə, əgər müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilmiş müddətdən gec olmamaq şərti ilə öz tələblərini irəli sürmək hüququna malikdir. [9]

4. Zəmanətli təmir aparılarkən malın (işin, xidmətin) zəmanət müddəti onun təmirdə olduğu müddət qədər uzadılır. Göstərilən müddət istehlakçının qüsurları aradan qaldırmaq tələbini irəli sürdüyü gündən hesablanır. Mal dəyişdirildikdə zəmanət müddəti dəyişdirilmə günündən etibarən yenidən hesablanır.

M a d d ə 7. **Qüsuru olan mal satılarkən istehlakçının hüquqları**

1. İstehlakçı müqavilə və ya digər qaydalarla müəyyən olunmuş zəmanət müddəti ərzində aldığı malda qüsur və ya saxtalaşdırma aşkar edərsə, öz istəyinə görə satıcıdan və ya istehsalçıdan aşağıdakıları tələb etmək hüququna malikdir:

lazımi keyfiyyətli mala dəyişdirməyi;

satış qiymətini uyğun məbləğdə azaltmağı;

malın qüsurlarının icraçının (satıcının, istehlakçının) hesabına aradan qaldırılmasını və ya qüsurların aradan qaldırılması üçün istehlakçının və ya üçüncü şəxslərin çəkdiyi xərclərin əvəzinin ödənilməsini;

malın, həmin mala uyğun digər modelli (markalı, tipli və i. a.) mal ilə, dəyəri yenidən hesablanma şərti ilə əvəz edilməsini;

müqavilənin ləğv edilməsini və çəkdiyi zərərin ödənilməsini.

2. Satıcı (icraçı) istehlakçıdan lazımi keyfiyyəti olmayan, malı geri götürməyə və bu maddənin birinci bəndində göstərilən istehlakçının tələblərindən birini yerinə yetirməyə borcludur.

İri qabaritli və ağırçəkili malların istehlakçıdan satıcıya (icraçıya) qaytarılması və dəyişdirilərək yenidən istehlakçıya çatdırılması satıcının (icraçının) hesabına həyata keçirilir.

3. İstehlakçının malı dəyişmək tələbi mal olduqda dərhal yerinə yetirilməli, zərurət olduqda onun keyfiyyəti müvafiq tələb verilən andan 14 gün müddətində yoxlanılmalı və ya tərəflər arasında razılaşdırılmış müddət ərzində dəyişdirilməlidir.

İstehlakçının malı dəyişdirmək tələbi, mal olmadıqda müvafiq ərizənin verildiyi andan iki ay müddətində ödənilməlidir.

Göstərilən müddət ərzində malı dəyişdirmək mümkün olmadıqda, istehlakçı satıcı (istehsalçı) qarşısında bu maddənin birinci bəndinin ikinci, üçüncü, dördüncü və beşinci abzaslarında nəzərdə tutulmuş digər tələblərin yerinə yetirilməsini tələb edə bilər.

4. Qüsurlu mal lazımi keyfiyyətli, eyni modelli (markalı, tipli və i. a.) mala dəyişdirilərkən qiymət dəyişərsə, istehlakçı qiymət fərqini ödəmir.

Qüsurlu mal lazımi keyfiyyətli, eyni əlamətləri olan, lakin başqa modelli (markalı, tipli və i. a.) mala dəyişdirilərkən qiymətlər dəyişdikdə, malın dəyəri göstərilən malın alındığı vaxt qüvvədə olmuş qiymətlər əsas götürülməklə yenidən hesablanır.

Müqavilə ləğv edildikdə, istehlakçı ilə hesablamalar mala qiymətlər artan hallarda eyni dərəcəli malların qiymətlərinin artması nəzərə alınmaqla, qiymətlər aşağı düşdükdə isə malın alındığı vaxt dəyəri əsas götürülməklə aparılır.

5. İstehlakçıya keyfiyyətsiz *qida məhsulu* satılan halda, keyfiyyətsizlik *məhsulun* yararlılıq müddəti ərzində aşkar olunubsa, satıcı həmin *məhsulu* keyfiyyətli *məhsula* dəyişdirməli və ya *məhsulun* dəyərinin məbləğini qaytarmalıdır. [10]

Belə hallarda istehlakçı ilə hesablaşma bu maddənik 4-cü bəndində göstərilən qaydada aparılır.

6. İstehlakçı malın qüsurunun əvəzsiz olaraq aradan qaldırılmasını tələb edərsə, qüsur 14 gün ərzində və ya tərəflərin razılığı ilə başqa müddətdə aradan qaldırılmalıdır.

İstehlakçının tələbi ilə satıcı (icraçı) məişət texnikasının və nəqliyyat vasitələrinin təmir edildiyi və ya dəyişdirildiyi müddət üçün ona əvəzsiz olaraq (evinə çatdırmaqla) oxşar mal verməlidir.

Təmir (dəyişdirmə), habelə malın qüsurlarının aradan qaldırıldığı və ya dəyişdirildiyi müddət üçün oxşar malı vermək tələbinin yerinə yetirilməsi (14 gün) ləngidildikdə satıcı (icraçı) istehlakçıya mal verməklə bir vaxtda, müəyyən edilmiş müddətin ötürüldüyü hər gün üçün ona malın satış qiymətinin bir faizi məbləğində dəbbə pulu ödəyir.

7. İstehlakçının tələbinə, qəbz, mal və ya kassa çeki, zəmanət müddəti olan mallar üzrə isə texniki pasport və ya onu əvəz edən digər sənəd təqdim edildikdə baxılır.

Satıcı istehlakçıya mal satarkən ona qəbz, mal, kassa çeki və ya digər yazılı sənəd verməlidir.

İstehlakçı ona verilən texniki pasportu və ya onu əvəz edən digər sənədi itirərsə, onların bərpası qanunvericilikdə nəzərdə tutulmuş qaydada həll edilir.

8. İstehsalçı istehlakçının mala olan iddiasını aradan qaldırmaq üçün satıcının sərf etdiyi xərcləri ödəməlidir.

9. Azərbaycan Respublikasından kənarda istehsal olunmuş və ya vasitəçilərdən alınmış mallar barəsində bu maddənin birinci bəndində müəyyən edilmiş tələblər satıcının hesabına ödənilir.

10. Əgər satıcı, istehsalçı (onların funksiyalarını yerinə yetirən müəssisələr) malın qüsurlarının istehlakçı tərəfindən istifadə və ya saxlanma qaydalarının pozulması, üçüncü şəxslərin hərəkətləri və ya təbii fəlakət nəticəsində əmələ gəldiyini sübuta yetirərsə, istehlakçının bu maddədə nəzərdə tutulan tələbləri təmin olunmamalıdır.

İstehlakçı malın keyfiyyətinin yoxlanmasında şəxsən, yaxud öz nümayəndəsi vasitəsilə iştirak etmək hüququna malikdir.

M a d d ə 8. **İş görülməsi və xidmət göstərilməsi üçün müqavilə bağlanmasında icraçının vəzifələri**

Bazarda hökmran mövqe tutan istehsalçı və ya icraçı (onun nizamnamə fəaliyyətindən, yaxud istehsal imkanlarından kənara çıxdığını sübut etdiyi hallar istisna olmaqla) istehlakçı ilə işlərin icra edilməsi və xidmət göstərilməsi üçün qeyri-bərabər şərt təklif etmədən müqavilə bağlamağa borcludur. Bu halda o, öz istehsalat, yaxud digər təsərrüfat fəaliyyətini elə təşkil etməlidir ki, əhalinin ehtiyacları lazımi səviyyədə və fasiləsiz təmin edilsin. İcraçının əsassız olaraq, müqavilə bağlamaqdan imtina etməsi nəticəsində o, işlərin yerinə yetirilməsindən və xidmətlərin göstərilməməsindən istehlakçıya dəyən ziyanın əvəzini ödəməyə borcludur. [11]

M a d d ə 9. **İş görülməsinə və xidmət göstərilməsinə dair müqavilələrin şərtləri pozularkən istehlakçıların hüquqları**

1. İcraçı iş görülməsinə və xidmət göstərilməsinə dair müqavilənin icrasına vaxtında başlamırsa və ya çox ləng işləməsi işin vaxtında başa çatmamasına dəlalət edirsə, istehlakçının müqavilədən imtina etmək və itkilərin ödənilməsini tələb etmək hüququ vardır.

2. İşlərdə (xidmətlərdə) müqavilə şərtlərindən əhəmiyyətli dərəcədə kənara çıxıldıqda, yaxud başqa mühüm qüsurlar olduqda istehlakçı həmin qüsurları aradan qaldırmaq üçün icraçıya əlavə müddət verərsə, bu müddətdə də iş (xidmət) yerinə yetirilməzsə, müqavilənin ləğv olunmasını və itkilərin ödənilməsini tələb etmək və ya icraçının hesabına qüsurların aradan qaldırılmasını üçüncü şəxslərə tapşırmaq hüququ var.

3. İcraçı müqavilənin şərtlərindən kənara çıxaraq, işi (xidməti) pisləşdirmişsə, yaxud işdə (xidmətdə) başqa qüsurlara yol vermişdirsə, istehlakçının istəyinə uyğun olaraq, göstərilən qüsurların icraçının hesabına əvəzsiz olaraq müvafiq müddətdə aradan qaldırılmasını və ya işin (xidmətin) qüsurlarını öz vəsaitləri ilə aradan qaldırarkən çəkdiyi zəruri xərclərin ödənilməsini, yaxud işin (xidmətin) haqqının müvafiq surətdə azaldılmasını tələb etmək hüququ var.

4. İstehlakçının materiallarından görülmüş işlərdə (xidmətlərdə) müqavilə şərtlərindən əhəmiyyətli kənaraçıxma və ya digər mühüm qüsurlar aşkar edilərsə, istehlakçının istəyinə uyğun olaraq, bu işlərin icraçının eyni cinsli və keyfiyyətli materialından hazırlanmasını, yaxud müqavilənin ləğv olunmasını və itkilərin ödənilməsini tələb etmək hüququ vardır.

5. Bu maddənin 2-ci bəndində göstərilmiş qüsurlar, müəyyən edilmiş müddətdə aradan qaldırılmadıqda, habelə işlərin (xidmətlərin) yerinə yetirilməsi ləngidildikdə, icraçı işin (xidmətin) qəbul edilməsi zamanı istehlakçıya gecikdirilmiş hər gün üçün işin və ya xidmətin dəyərinin (əgər dəyər ayrıca müəyyən edilməmişdirsə, sifarişin dəyərinin) bir faizi məbləğində dəbbə pulu ödəyir, bu şərtlə ki, müqavilədə dəbbə pulunun başqa məbləği nəzərdə tutulmuş olmasın.

Öhdəliklərin icra edilmədiyi və ya lazımınca icra edilmədiyi hallar üçün müəyyən edilmiş dəbbə pulunun (cərimənin, penyanın) icraçı tərəfindən ödənilməsi və itkilərin əvəzinin verilməsi onu öhdəlikləri yerinə yetirmək vəzifəsindən azad etmir.

6. İcraçı görülmüş işlərdə və göstərilmiş xidmətlərdə qüsurların istehlakçının təqsiri ucbatından əmələ gəldiyini sübut edərsə, buna görə məsuliyyət daşımır.

7. İstehlakçının bu maddənin 2-ci və 5-ci bəndlərində nəzərdə tutulmuş tələbləri işin (xidmətin) yerinə yetirilməsi gedişində istehlakçı tərəfindən qəbul edilməsi zamanı, habelə zəmanət müddəti ərzində, belə müddət olmadıqda isə bir il ərzində, qüsurlar aşkar edilərkən irəli sürülə bilər.

Zəmanət müddəti işin (xidmətin) istehlakçı tərəfindən qəbul olunduğu gündən, istehlakçının təqsiri üzündən vaxtında qəbul olunmadıqda isə işin (xidmətin) icrası üçün müqavilədə müəyyən edilmiş müddətdən hesablanır.

8. İcraçı istehlakçıdan qəbul etdiyi əşyanı (materialı) itirdikdə, korladıqda, zədələdikdə istehlakçıya özünün keyfiyyətcə və qiymətcə oxşar əşyasını qaytarmalı (iş görməli və xidmət göstərməli), bu mümkün olmadıqda istehlakçının razılığı ilə əşyanın (materialın) dəyərini və dəymiş itkiləri ona bir aydan gec olmamaq şərti ilə ödəməlidir.

9. İcraçı əşyanın (materialın) korlanmasına, gətirib çıxara bilən xüsusi xassələri barədə istehlakçını xəbərdar etməlidir. Elmi və texniki biliklərin səviyyəsi əşyanın (materialın) xüsusi xassələrini üzə çıxarmağa imkan vermədikdə belə, icraçı məsuliyyətdən azad edilmir.

İcraçının iş görmək və xidmət göstərmək üçün qəbul etdiyi əşyanın (materialın) dəyərin istehlakçı müqavilə bağlayarkən, müəyyənləşdirir.

10. İş görülməsində və xidmət göstərilməsində, istehlakçının həyatını, sağlamlığını və ya əmlakının təhlükəsizliyini təmin etməyən materialların, avadanlıqların cihazların, alətlərin, qurğuların və başqa vasitələrin tətbiqi nəticəsində vətəndaşın həyatına, sağlamlığına və ya əmlakına zərər dəyərsə, icraçı onlar xassələrini bilib-bilmədiyindən asılı olmayaraq məsuliyyət daşıyır.

M a d d ə 10. **İstehlakçıların malların (işlərin, xidmətlərin) təhlükəsiz olmasına hüquqları**

1. İstehlakçı qanunla nəzərdə tutulmuş hallarda malların, məmulatların və məlumat materiallarının nəzarət markası ilə markalanmasının təmin olunması hüququna malikidir.[12]

Malların, məmulatların və məlumat materiallarının nəzarət markası ilə markalanması həmin obyektlərin müəlliflik hüququ və əlaqəli hüquqlara əməl edilməklə hazırlandığını, satışı üçün müvafiq dövlət orqanından razılıq alınması tələb olunduqda belə razılığın alınmasını, həmin nüsxələri yaymaq hüququnun verildiyini təsdiq edir.

Nəzarət markası ilə markalanma tələbi istehlakçıların təhrif edilməmiş və dəyişikliyə məruz qalmamış, müəyyən edilmiş əxlaqi və mənəvi dəyərlərə uyğun hazırlanmış mallardan, məmulatlardan və məlumat materiallarından istifadə hüququnun təmin edilməsinə xidmət edir. Nəzarət markasının forması, uçotu, istifadəsi və verilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Aşağıdakıların nəzarət markası ilə markalanması tələb olunur:

dərman vasitələri;

audiovizual əsərin, fonoqramın, kompyuter proqramının, məlumat toplusunun, kitabın nüsxələri və digər müəlliflik və əlaqəli hüquq obyektləri;

dini təyinatlı ədəbiyyat (kağız və elektron daşıyıcılarında), audio və video materiallar, mal və məmulatlar və dini məzmunlu başqa məlumat materialları.

Satıcı (istehsalçı, icraçı) istehlakçıya qanunla nəzərdə tutulmuş hallarda nəzarət markası ilə markalanmış malları, məmulatları və məlumat materiallarını verməlidir. Nəzarət markası ilə markalanmamış malların, məmulatların və məlumat materiallarının yayılmasını həyata keçirən şəxslər qanunla nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

2. İstehlakçı malların (işlərin, xidmətlərin) adi şəraitdə istifadə olunmasının, saxlanılmasının və daşınmasının, onun həyatı, sağlamlığı, eləcə də ətraf mühit üçün təhlükəsiz olmasının, həmçinin onun əmlakına ziyan vurulmamasının təmin olunması hüququna malikdir.

Əgər istifadə edilməsi vətəndaşların həyatına sağlamlığına və əmlakına, habelə ətraf mühitə zərər vura bilən mala (işə, xidmətə) aid təhlükəsizlik tələblərini müəyyənləşdirən normativ sənəd yoxdursa, onda müvafiq icra hakimiyyəti orqanları belə normativ sənədlərin təxirə salınmadan hazırlanmasını və qəbul edilməsini təmin etməli, icraçı tərəfindən malın istehsalını və satışını, işin görülməsini və xidmət göstərilməsini dərhal dayandırmalıdır.

3. Müəyyən edilmiş vaxtdan artıq istifadə edilməsi istehlakçıların həyatına, sağlamlığına, onların əmlakına və ya ətraf mühitə təhlükə kəsb edən və ya zərər vura bilən mallara (işlərə, xidmətlərə) xidmət müddəti (yararlılıq müddəti) müəyyən edilməlidir.

İstehsalçı (icraçı) bu kimi malların təlimatlarında xidmət (yararlılıq) müddətlərini göstərməyə borcludur.

4. Malın (işin, xidmətin) təhlükəsiz istifadə edilməsi və ya daşınması, saxlanılması üçün xüsusi qaydalara əməl olunması zəruridirsə, onda istehsalçı (icraçı) belə qaydaları müəyyənləşdirməli, satıcı (icraçı) isə bunları istehlakçının nəzərinə çatdırmalıdır.

5. Qanunvericilik aktları ilə və ya digər normativ sənədlərdə vətəndaşların həyatı, sağlamlığı və əmlakı, ətraf mühitin mühafizəsi üçün təhlükəsizlik tələblərinin müəyyən edildiyi mallar (işlər, xidmətlər) qüvvədə olan qanunvericiliyə əsasən məcburi sertifikasiyadan keçirilməlidir. Göstərilən tələblərə uyğunluğunu təsdiq edən sertifikat olmadıqda belə malları (o cümlədən xarici malları) Azərbaycan Respublikasında satmaq və istifadə etmək qadağandır.

Belə malların Azərbaycan Respublikasının ərazisinə idxal edilməsinə razılıq üçün gömrük orqanlarına təqdim edilən, müvafiq səlahiyyətli orqan tərəfindən verilmiş və ya da tanınmış uyğunluq sertifikatı əsas verir.

Bu bəndlə nəzərdə tutulmuş malların (işlərin, xidmətlərin) təhlükəsiz olması barədə tələblərin pozulmasına görə məsuliyyət bu Qanunla və digər qanunvericilik aktları ilə müəyyən edilir.

6. İstehlakçı malın (işin, xidmətin nəticələrinin) istifadəsi, daşınması və saxlanılması qaydalarına düzgün əməl etdikdə, lakin həmin mal (iş, xidmət) onun həyatına, sağlamlığına, əmlakına və ya ətraf mühitə zərər vurduqda və ya zərər vura bilərsə, istehsalçı (icraçı, satıcı) onun istehsalını (satışını) zərər vura bilən səbəblər aradan qaldırılanadək dayandırmalı, zəruri hallarda isə onun dövriyyədən çıxarılması və istehlakçıdan geri qaytarılması üçün tədbirlər görməlidir.

Zərərin səbəblərini aradan qaldırmaq mümkün deyildirsə, istehsalçı (icraçı) belə malları (işləri, xidmətləri) istehsaldan çıxarmaqla, dövriyyədən yığmağa və istehlakçıdan geri almağa borcludur. İstehsalçı (icraçı) bu vəzifələrini yerinə yetirmədikdə malları (işləri, xidmətləri) istehsaldan çıxarmaq, dövriyyədən yığmaq və istehlakçılardan geri almaq haqqında qərarı müvafiq dövlət nəzarət orqanları öz səlahiyyətləri çərçivəsində qəbul etməlidirlər. Bu hərəkət nəticəsində *qida məhsulları* qidalanma üçün yararsız *və təhlükəli* sayılarsa, onlar məhv və ya *utilizasiya* edilməlidirlər. [13]

Malların (işlərin, xidmətlərin) geri qaytarılması ilə əlaqə dar istehlakçıya dəyən zərəri istehsalçı (icraçı) tam həcmdə ödəməlidir.

7. Bu maddənin 4-cü və 5-ci bəndlərində müəyyən edilmiş tələblər pozulduqda, malların keyfiyyətinə dövlət nəzarətini həyata keçirən orqanların qərarı ilə istehsalçı (icraçı) həmin qaydalar pozulmaqla satılmış mallardan əldə etdiyi gəliri dövlət büdcəsinə köçürür.

8. Yeni (modernləşdirilmiş) mal (iş, xidmət) hazırlanarkən istehsalçı vətəndaşların həyatının, sağlamlığının, əmlakının, həmçinin ətraf mühitin təhlükəsizliyi tələblərinə cavab verməsini, təsdiq etmək və dövlət ekspertizasından keçirmək üçün həmin malın normativ sənədlərini müvafiq orqana təqdim etməlidir.

9. İstehsalçı (icraçı) malda (işdə, xidmətdə) ehtimal doğuracaq xətər (risk) və təhlükəsiz istifadəsi barədə beynəlxalq təcrübələrdə qəbul edilmiş işarələr vasitəsi ilə istehlakçıya məlumat verməyə borcludur.

M a d d ə 11. **Lazımi keyfiyyəti olmayan malın (işin, xidmətin) vurduğu zərərə görə əmlak məsuliyyəti** [14]

Malın (işin, xidmətin) konstruksiya, istehsal, resept və başqa qüsurları nəticəsində istehlakçının həyatına, sağlamlığına və ya əmlakına dəymiş zərər, qanunvericilikdə daha yüksək məsuliyyət nəzərdə tutulmayıbsa, günahkar tərəfindən istehlakçıya tam ödənilməlidir.

Malın, işin və ya xidmətin qüsurları nəticəsində əmlaka zərər vurulan hallarda bu qayda yalnız o şərtlə tətbiq edilir ki, keyfiyyətsiz məhsul digər əmlaka zərər vurmuş və həmin digər əmlak öz təyinatına görə əsasən istehlak məqsədi üçün istifadə edilmiş olsun.

M a d d ə 12. **Mənəvi ziyanın ödənilməsi**

İstehlakçıların bu Qanunda nəzərdə tutulan hüquqları istehsalçı (icraçı, satıcı) tərəfindən pozularsa, istehlakçıya dəyən mənəvi ziyan günahkar tərəfindən ödənilməlidir. Ödənilən ziyanın dəyəri, qanunla başqa hal nəzərdə tutulmayıbsa, məhkəmə tərəfindən müəyyən edilir.

M a d d ə 13. **İstehlakçıların mal (iş, xidmət) haqqında məlumat almaq hüququ**

1. Satıcı (icraçı) istehlakçını maraqlandıran malın (işin, xidmətin) qiyməti, istehlak xassələri (*qida məhsulları* barəsində isə; həm də *qida və enerji dəyəri, tərkibi, miqdarı, keyfiyyət göstəriciləri, istehsal tarixi, yararlılıq müddəti, tərkibindəki allergenlər, mənşəyi*), əldə edilməsi şərtləri, təminat öhdəlikləri və iddiaların irəli sürülməsi, malın işlədilməsi, saxlanılması və təhlükəsiz istifadəsi üsulları və qaydaları barəsində istehlakçıya zəruri və düzgün məlumat verməlidir. [15]

Satıcı (icraçı) istehlakçıya müəssisənin satdığı malların ticarət qaydaları və xidmət növləri barəsində də dolğun və düzgün məlumat verməlidir.

Azərbaycan Respublikasının ərazisində istehsal edilən, habelə ixrac edilən malların üzərindəki etiketlər və digər yazılar müvafiq xarici dillərlə yanaşı, dövlət dilində də olmalıdır. Azərbaycan Respublikasına idxal edilən mal və məhsulların üzərindəki etiketlər və adlar, onlardan istifadə qaydaları barədə izahat vərəqələri başqa dillərlə yanaşı, Azərbaycan dilinə tərcüməsi ilə müşayiət olunmalıdır. [16]

Satıcı (icraçı) Azərbaycan Respublikasının ərazisində satdığı malların (işlərin, xidmətlərin) qiymətlərini yalnız manatla göstərməlidir. [17]

2. Bu maddənin 1-ci bəndində nəzərdə tutulmuş məlumat, mala əlavə olunan texniki sənədlər, habelə nişanlanma, hazırlanma və satış tarixinin göstərilməsi vasitəsilə və ya ayrı-ayrı xidmət sahələrində qəbul olunmuş başqa üsulla istehlakçının nəzərinə çatdırılır.

3. İstehsal edilmiş malın üzərində istehsal və ya ticarət markası, əmtəə nişanı və ya coğrafi göstərici olmalıdır. İstehsal markasında istehsalçının (icraçının) adı, mənsubiyyəti, yeri və standartların (normativ sənədlərin) işarəsi göstərilir. Hazırlanmış mal istehsal markasına uyğun gəlməlidir. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxsin hazırladığı malın (işin, xidmətin) etiketi (yarlığı) olmalıdır. Etiketdə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq hüququ verən sənədin nömrəsi, onu təsdiq edən orqanın adı, zəruri hallarda onun sertifikatlaşdırılması, xüsusi tələblərə cavab verən mallar (işlər, xidmətlər) üçün isə dövlət standartlarının nömrəsi haqqında məlumat verilməlidir. *Qida məhsullarının etiketlənməsinə dair tələblər "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq müəyyən edilir.* [18]

4. Satılan mal barəsində yanlış məlumatın və ya kifayət qədər dolğun olmayan məlumatın verilməsi, istehlakçının lazımi xassələrə malik olmayan malı (işi, xidməti) almasına səbəb olmuşdursa, onun müqaviləni ləğv etmək və itkilərin ödənilməsini tələb etmək hüququ vardır.

*5. İstehsalı (satışı) lisenziyalaşdırılan, sertifikatlaşdırılan əmtəələr yalnız müvafiq təsdiqləyici sənədlər olduqda reklam edilə bilər. Bu halda reklamda lisenziyanın və sertifikatın nömrəsi, verilmə tarixi və onu verən orqanın adı göstərilməlidir.*

*6. Haqsız, qeyri-dəqiq və gizli reklam nəticəsində reklam istehlakçısına dəyən zərər məhkəmənin qərarı ilə təqsirkar bilinmiş reklam fəaliyyətinin subyekti tərəfindən ödənilir.* [19]

7. Mal (iş, xidmət) haqqında yanlış və ya yarımçıq məlumat, yaxud haqsız, *qeyri-dəqiq və gizli* reklam nəticəsində dəyən zərəri ödəmək barəsində istehlakçının tələblərinə baxılarkən onun əldə etdiyi malın (işin, xidmətin) xassələrinə və xarakteristikasına dair xüsusi biliyinin olmaması ehtimalı əsas götürülməlidir.[20]

8. Dövlət istehlakçılara öz hüquqları və onların müdafiəsi haqqında zəruri məlumat almaq üçün şərait yaradır.

M a d d ə 14. **Ticarət və başqa xidmət növləri sahələrində istehlakçıların hüquqları**

1. Bütün vətəndaşlar ticarət və başqa xidmət növləri sahəsində tələbatlarının ödənilməsində bərabər hüquqa malikdirlər.

Qanunvericilik aktlarında nəzərdə tutulmuş hallardan başqa, istehlakçıların hüquqlarına üstünlük verilməsinə, birbaşa və ya dolayısı ilə hər hansı şəkildə məhdudlaşdırılmasına yol verilmir. Sosial müdafiəyə ehtiyacı olan vətəndaşların ayrı-ayrı qruplarına ticarət və digər xidmət növləri sahəsində Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada güzəştlər və üstünlüklər verilə bilər.

2. İstehlakçı satıcının (icraçının) iş rejimini nəzərə almaqla, özü üçün əlverişli olan vaxtda sərbəst mal və xidmət seçmək hüququna malikdir.

İstehlakçıya sərbəst mal və xidmət seçməkdə hər cür köməklik göstərmək satıcının (icraçının) borcudur.

İstehlakçını keyfiyyətsiz və ya ona lazım olmayan çeşidli mal almağa və xidmət göstərilməsinə məcbur etmək qadağan edilir.

3. Satıcı (icraçı) istehlakçıya öz müəssisəsinin adı, mənsubiyyəti və iş rejimi barədə düzgün və başa düşülən məlumat verməlidir.

4. İstehlakçı aldığı malların keyfiyyətini, komplektliyini, ölçüsünü, çəkisini və qiymətini yoxlamaq, malların düzgün və təhlükəsiz istifadəsini nümayiş etdirmək hüququna malikdir. Belə hallarda satıcı istehlakçının tələbi ilə ona nəzarət-ölçü cihazlarını, malın qiyməti haqqında sənədləri təqdim etməlidir. Zəmanət Müddətində malın keyfiyyətinin itməsi səbəblərini müəyyən etmək lazım gəldiyi halda satıcı istehlakçının yazılı ərizəsini aldıqdan sonra 3 gün ərzində bu malı ekspertizaya göndərməlidir. Ekspertiza satıcının hesabına aparılır.

5. İstehlakçı satıcının süni surətdə yaratdığı dəstdən ona lazım olan malı almaq hüququna malikdir.

6. Ticarət və digər xidmət növləri müəssisələrində istehlakçının hüquqları pozularsa, satıcı (icraçı) və bu müəssisələrin işçiləri qanunvericiliklə müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar.

M a d d ə 15. **İstehlakçının tələblərini ödəməyən malı lazımi keyfiyyətli mala dəyişdirmək hüququ**

1. Lazımi keyfiyyətli *qeyri-qida* malı öz formasına, ölçüsünə, fasonuna, rənginə görə istehlakçıya yaramırsa və ya digər səbəblərə görə təyinatı üzrə istifadə oluna bilməzsə, istehlakçının onu alındığı yerdə uyğun mala dəyişdirmək hüququ vardır.[21]

İstehlakçı malın alınma günü sayılmamaq şərti ilə, 14 gün ərzində həmin malı lazımi keyfiyyətli mala dəyişdirmək hüququna malikdir. Pərakəndə satılan malın dəyişdirilməsi üçün satıcı tərəfindən daha uzun müddət elan edilə bilər. [22]

İstehlakçı tərəfindən əldə edilmiş lazımi keyfiyyətli mal istifadə olunmayıbsa və onun əmtəə görünüşü, istehlak xassələri, plombu, yarlığı, həmçinin mal və yaxud kassa qəbzi və ya ona mal ilə birlikdə verilmiş digər sənədləri saxlanılıbsa, bu hallarda o dəyişdirilə bilər.

Bu maddədə göstərilmiş əsaslar üzrə dəyişdirilməli olmayan malların siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

2. Malı dəyişdirmə anında satışda uyğun mal yoxdursa, istehlakçı dəyəri yenidən hesablamaqla istənilən başqa bir malı almaq və ya qaytarılan malın dəyəri məbləğində pulu geri götürmək, ya da satışa uyğun mal gələn kimi onu dəyişdirmək hüququna malikdir. Satıcı malın satışa daxil olduğu gün malın dəyişdirilməsini tələb edən istehlakçıya məlumat verməlidir.

M a d d ə 16. **İstehlakçının hüquqlarını məhdudlaşdıran müqavilə şərtlərinin etibarsızlığı**

Qanunvericilikdə nəzərdə tutulan hüquqlarla müqayisədə istehlakçının hüquqlarını məhdudlaşdıran müqavilə şərtləri etibarsız sayılır. İstehlakçının hüquqlarını məhdudlaşdıran müqavilə şərtlərinin tətbiqi nəticəsində istehlakçıya zərər dəyibsə, onlar təqsirkar şəxs tərəfindən tam həcmdə ödənilməlidir.

İstehsalçı (icraçı, satıcı) istehsalat və ya ticarət fəaliyyətində tutduğu vəzifə üstünlüklərindən istifadə edərək istehlakçıya zərər vurduqda istehlakçı ona vurulmuş zərərin ödənilməsi hüququna malikdir.

## III f ə s i l
## İSTEHLAKÇILARIN HÜQUQLARININ MÜDAFİƏSİ

M a d d ə 17. **Ticarət və başqa xidmət növləri haqqında qaydalar**

Ticarət, məişət və digər növ xidmət (iş görülməsi, xidmət göstərilməsi) qaydaları Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilir. Bu qaydalar "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununa və digər qanunvericilik aktlarına zidd olmamalıdır.

Ticarət, məişət və digər növ xidmətlərin göstərilməsi zamanı müştərilərlə hesablaşmaların aparılması, habelə vergilərin və dövlət orqanları tərəfindən göstərilən xidmətlərə (işlərə) görə dövlət rüsumlarının və haqlarının ödənilməsi üçün müvafiq POS-terminallar quraşdırılmalıdır.

POS-terminallar quraşdırılacaq obyektlərin müəyyənləşdirilməsi meyarları, ərazilər üzrə POS-terminalların mərhələlərlə tətbiqi qaydası və cədvəli müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Bu maddənin ikinci hissəsində nəzərdə tutulan POS-terminalların quraşdırılmaması Qanunla nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.[23]

Maddə 18. **İstehlakçıların hüquqlarının müdafiəsi üzrə dövlət siyasəti** [24]

18.0. İstehlakçıların hüquqlarının müdafiəsi üzrə dövlət siyasəti malların (xidmətlərin, işlərin) istehlakçılarının (istifadəçilərinin) qanuni maraqlarının qorunması məqsədilə özündə aşağıdakı tələbləri ehtiva edir:

18.0.1. istehlak bazarında satılan malların (xidmətlərin, işlərin), o cümlədən ~~yeyinti məhsullarının və~~ dərman vasitələrinin qablaşdırılmasının, daşınmasının, saxlanmasının və satış şəraitinin sanitar-gigiyenik, ekoloji, texniki, təhlükəsizlik standartlarına, ticarət norma və

qaydalarına, *qida məhsullarının isə qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara*uyğun olmasına dövlət nəzarətini;[25]

18.0.2. malların (xidmətlərin, işlərin) bəzi növlərinin istehsalına, idxalına və satışına xüsusi razılıq (lisenziya) verilməsini;

18.0.3. məcburi sertifikatlaşdırılmalı olan malların (xidmətlərin, işlərin) müəyyənləşdirilməsi və onlara uyğunluq sertifikatının və (və ya) uyğunluq nişanlarının verilməsini;

18.0.4. dərman vasitələrinin satışı, tibbi xidmətlərin göstərilməsi ilə məşğul olan şəxslərin müvafiq tibbi təhsilinin olmasına nəzarəti;

18.0.5. malların (xidmətlərin, işlərin) mənşəyi, kəmiyyəti və keyfiyyəti, yararlılıq müddəti, satış şərtləri, qiyməti barədə yalan və (və ya) natamam məlumatlar verməklə, yaxud *haqsız, qeyri-dəqiq və gizli* reklam vasitəsilə satıcılar və (və ya) *reklamverici, reklam yaradıcısı, reklam istehsalçısı, reklam yayıcısı və reklam agenti* tərəfindən istehlakçıların (istifadəçilərin) aldadılmasının qarşısının alınmasını;[26]

18.0.6. həcmi müvafiq qaydada müəyyənləşdirilərək, təsdiq olunmuş maddi və mənəvi zərərin satıcı tərəfindən (istehsalçı, idxalçı, *reklam fəaliyyətinin subyekti*) alıcıya (istehlakçıya) ödənilməsini;[27]

18.0.7. insanların sağlamlığı, ətraf mühit üçün təhlükəli olan malların (xidmətlərin, işlərin) istehsalının, idxalının və satışının qadağan olunmasını;

18.0.8. istehlakçıların hüquqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlığı, ictimai birliklərin fəaliyyəti üçün müvafiq şəraitin yaradılmasını.

### Maddə 19. **İstehlakçıların hüquqlarının və qanuni maraqlarının dövlət müdafiəsi** [28]

19.1. Malların (xidmətlərin, işlərin) istehlakçılarının hüquqlarının və qanuni maraqlarının dövlət müdafiəsi ticarət, ictimai iaşə, məişət və digər xidmət normalarına və qaydalarına riayət olunmasına müvafiq icra hakimiyyəti orqanı tərəfindən nəzarət formasında həyata keçirilir.

19.2. İstehlakçıların hüquqlarının və qanuni maraqlarının qorunması funksiyalarını yerinə yetirən müvafiq icra hakimiyyəti orqanı:

19.2.1. istehsal, idxal edilən və (və ya) satılan malların (xidmətlərin, işlərin) müvafiq standartların və texniki şərtlərin tələblərinə uyğunluğunu müəyyənləşdirir, onlara uyğunluq sertifikatları və (və ya) uyğunluq nişanları verir;

19.2.2. məcburi sertifikatlaşdırılması tələb olunan malların (xidmətlərin, işlərin) siyahısını müəyyənləşdirir və onların sertifikatı olmadan satışının (icrasının) qarşısını alır və ticarət dövriyyəsindən çıxarır;

19.2.3. *texniki normativ hüquqi aktların* tələblərinə cavab verməyən, insanların həyat və sağlamlığı, ətraf mühit üçün təhlükə yaradan malların (xidmətlərin, işlərin) istehsalının, idxalının və satışının qarşısını alır;[29]

19.2.4. mənşəyi məlum olmayan, yararlılıq müddəti ötmüş malların ticarət dövriyyəsindən çıxarılmamasına, onların satılmasına yol vermiş şəxslərin müvafiq qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyətə cəlb olunması üzrə tədbirlər görür;

19.2.5. istehsalı, idxalı və satışı qadağan olunmuş mallar (xidmətlər, işlər) barədə əhaliyə vaxtında məlumat vermək məqsədilə *mediada* məlumatlar dərc edir və yayır;[30]

19.2.6. satılan xammalın, materialların, hazır məhsulların müvafiq keyfiyyət və təhlükəsizlik tələblərinə uyğunluğunun götürülmüş nümunələr əsasında ekspertizasını (sınağını) keçirir və onun nəticələrindən asılı olaraq müvafiq tədbirlər görür. ~~Həmin nümunələrin dəyəri və ekspertizanın (sınağın) keçirilməsi xərcləri yoxlanılan təsərrüfat subyekti tərəfindən ödənilir və onun istehsal-təsərrüfat xərclərinə aid edilir;~~ [31]

19.2.7. *qida* məhsullarının və dərman vasitələrinin, insanların sağlamlığı və ətraf mühit üçün təhlükə yarada bilən malların qablaşdırılarkən sanitar-gigiyena və toksikologiya, möhkəmlik baxımından təhlükəsiz materiallardan istifadə olunmasına nəzarət edir; [32]

19.2.8. patentləşdirilmiş dərman vasitələrinin, insanların sağlamlığı və ətraf mühit üçün təhlükə yarada bilən malların təhlükəsiz istifadə qaydaları barədə xəbərdarlıq olmadan satışının qarşısını alır;

19.2.9. saxtalaşdırılmış malların ticarət dövriyyəsindən çıxarılmasını, bu malların istehsalı və satışı ilə məşğul olan şəxslərin müvafiq qanunvericiliklə nəzərdə tutulmuş məsuliyyətə cəlb edilməsini təmin edir;

19.2.10. malların (xidmətlərin, işlərin) müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi, yaxud istehsalçı tərəfindən tövsiyə olunan qiymətlərlə satılmasına nəzarət edir;

19.2.11. qiymətli metalların, qiymətli daşların və onlardan hazırlanmış zərgərlik məmulatlarının müvafiq qanunvericiliklə müəyyən olunmuş satış qaydalarına riayət olunmasına nəzarət edir;

19.2.12. satıcılar tərəfindən çəkidə, qiymətdə, hesablaşmalarda aldadılması, mallar barədə yalan məlumatlar verilməsi, satış şərtlərinin pozulması barədə alıcıların müraciətlərinə baxır və şikayətlərini araşdırır, onların nəticələri üzrə müvafiq tədbirlər görür;

19.2.13. malların (xidmətlərin, işlərin) istehsalı, ixracı, idxalı və satışı ilə məşğul olan şəxslərdən onların keyfiyyəti, qiyməti, satış şərtləri barədə məlumatlar alır;

19.2.14. satılan malların (xidmətlərin, işlərin) keyfiyyətinin yüksəldilməsi, nomenklaturunun və çeşidinin genişləndirilməsi barədə təkliflər hazırlayır və müvafiq icra hakimiyyəti orqanlarına təqdim edir.

M a d d ə 20. **İstehlakçıların hüquqlarının müdafiəsi üzrə yerli icra hakimiyyəti orqanlarının vəzifələri**

Yerli icra hakimiyyəti orqanları istehlakçıların hüquqlarının müdafiəsi üzrə müvafiq orqanları yarada bilərlər. İcra hakimiyyəti orqanlarının istehlakçıların hüquqlarının müdafiəsi üzrə müvafiq orqanları:

istehlakçıların şikayətlərinə baxır, onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarının müdafiəsi üzrə müvafiq məsləhət verir;

istehlakçıların hüquqlarını məhdudlaşdıran şərtləri aşkarlamaq məqsədilə satıcılarla (istehsalçılarla, icraçılarla) istehlakçılar arasında bağlanan müqavilələri təhlil edir;

istehlakçıların həyatına, sağlamlığına, yaxud əmlakına dəyən ziyan haqqında məlumat toplayır və onu aidiyyəti üzrə səlahiyyətli orqanlara göndərir;

istehlakçıların mallarda (işlərdə, xidmətlərdə) nöqsanlar, yaxud təhlükəli mallar (işlər, xidmətlər) aşkar etdikləri hallarda bunlar barədə də malların (işlərin, xidmətlərin) təhlükəsizliyinə nəzarəti həyata keçirən müvafiq dövlət icra hakimiyyəti orqanlarına xəbər verir;

istehlakçıların hüquqlarının müdafiəsi məqsədilə öz təşəbbüsü və ya istehlakçının (istehlakçılar ittifaqının) müraciəti əsasında məhkəmə qarşısında iddia qaldıra bilər.

M a d d ə 2 1 . **İstehlakçıların hüquqlarının pozulmasına görə məsuliyyət** [33]

Bu Qanunun pozulmasına görə təqsirli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada mülki, inzibati və cinayət məsuliyyəti daşıyırlar.

M a d d ə 22. **İstehlakçıların hüquqlarının müdafiəsini həyata keçirən dövlət icra hakimiyyəti orqanlarının qərarlarına, onların vəzifəli şəxslərinin, həmçinin bu şəxslərin hərəkətlərinə dair şikayətlərə baxılması**

İstehlakçıların hüquqlarının müdafiəsini həyata keçirən dövlət icra hakimiyyəti orqanlarının qərarlarına, onların vəzifəli şəxslərinin, həmçinin bu şəxslərin hərəkətlərinə qarşı şikayətlərə qanunvericiliklə müəyyən olunmuş qaydada baxılır.

İstehlakçıların hüquqlarının müdafiəsini həyata keçirən dövlət icra hakimiyyəti orqanlarının, onların vəzifəli şəxslərinin qərarlarının yerinə yetirilməsi, həmçinin bu şəxslərin hərəkətlərinin icrası şikayətin verilməsi ilə dayandırılmır.

M a d d ə 23. **İstehlakçıların hüquqlarının müdafiəsini həyata keçirən dövlət icra hakimiyyəti orqanlarının hüquq-mühafizə orqanları ilə əlaqəsi**

Hüquq-mühafizə orqanlarının işçiləri istehlakçıların hüquqlarının müdafiəsini həyata keçirən dövlət icra hakimiyyəti orqanlarının vəzifəli şəxslərinə öz vəzifələrinin yerinə yetirilməsində köməklik göstərir və bu işlərin görülməsində onlara maneçilik törədən vətəndaşların qanunsuz hərəkətlərinin qarşısını alırlar.

M a d d ə 24. **Azərbaycan Respublikasında istehlakçıların hüquqlarını müdafiə edən dövlət icra hakimiyyəti orqanlarının vəzifəli şəxslərinin hüquqi müdafiəsi**

İstehlakçıların hüquqlarını müdafiə edən dövlət orqanlarının vəzifəli şəxslərinin və mütəxəssislərinin hüquqları Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları əsasında təmin edilir.

Onların vəzifələrinin yerinə yetirilməsinə mane olmaq və ya hər hansı şəkildə təsir göstərmək, habelə işlərinə müdaxilə etmək qadağandır.

Belə hərəkətlərə yol verən orqanlar, vəzifəli şəxslər və vətəndaşlar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada məsuliyyət daşıyırlar.

M a d d ə 25. **(Çıxarılıb)** [34]

M a d d ə 26. **İstehlakçıların hüquqlarının məhkəmə müdafiəsi**

İstehlakçıların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarının müdafiəsini məhkəmə həyata keçirir.

İstehlakçının tələblərini yerinə yetirməklə yanaşı, məhkəmə həmçinin ona dəymiş mənəvi (qeyri-əmlak) zərərin də ödənilməsini həll edir.

İstehlakçılar hüquqlarının pozulması barədə qaldırdıqları iddialara görə dövlət rüsumu verməkdən azad edilirlər.

## IV f ə s i l
## İSTEHLAKÇILARIN İCTİMAİ TƏŞKİLATLARI (İSTEHLAKÇILAR BİRLİYİ)

M a d d ə 27. **İstehlakçıların ictimai təşkilatları (istehlakçılar birliyi) və onların hüquqları**

1 . Azərbaycan Respublikasının vətəndaşları öz qanuni hüquqlarının müdafiəsi üçün könüllülük əsasında birləşib istehlakçıların ictimai təşkilatlarını (istehlakçılar birliyini) yaratmaq hüququna malikdirlər.

İstehlakçılar birliyi ictimai təşkilat olub, öz fəaliyyətini müvafiq qanunvericilik əsasında həyata keçirir. [35]

2. İstehlakçılar birliyi:

malların istehlak xassələrini, ona olan tələbatı, istehsal olunan və satılan malın keyfiyyətinə və qiymətinə dair ictimai fikri öyrənmək;

malların (işlərin, xidmətlərin) ekspertizasını və sınağını aparmaq üçün müvafiq dövlət nəzarət orqanlarına müraciət etmək;

müvafiq icra hakimiyyəti orqanlarından və təsərrüfat subyektlərindən öz məqsəd və niyyətlərini həyata keçirmək üçün lazımi məlumat almaq;

malların (işlərin, xidmətlərin) keyfiyyətinə, ticarət və digər növ xidmət sahələrinə nəzarət etməkdə müvafiq dövlət orqanlarına kömək göstərmək;

istehlakçılara qanunvericiliyə uyğun hüquqi məsləhətlər verilməsini təşkil etmək;

malın (işin, xidmətin) keyfiyyətinə aid tələbləri müəyyənləşdirən normativ sənədlərin hazırlanmasına dair təklif və rəy vermək;

qanunvericiliyə uyğun olaraq, müvafiq icra hakimiyyəti orqanları qarşısında istehlakçıların maraqları haqqında məsələ qaldırmaq və onu müdafiə etmək;

malın (işin, xidmətin) keyfiyyətinin yaxşılaşdırılması və qiymətqoyma qaydalarına. əməl edilməsi, müəyyənləşdirilmiş keyfiyyət tələblərinə uyğun gəlməyən malın (işin, xidmətin) satışının müvəqqəti dayandırılması, vətəndaşların həyatı, sağlamlığı və əmlakı, ətraf mühit üçün təhlükəli olan malın (işin, xidmətin) istehsalının dayandırılması, satışdan götürülməsi, əsassız artırılmış qiymətlərlə məhsul satışının dayandırılması, habelə mövcud qanunvericiliyi pozmaqla müəyyənləşdirilmiş qiymətlərin ləğv edilməsi tədbirləri barəsində müvafiq icra hakimiyyəti orqanlarına, müəssisələrə və təşkilatlara təkliflər vermək;

istehlakçıların ictimai təşkilatlarının (istehlakçılar birliyinin) üzvü olmayan vətəndaşların, qanunvericiliyə uyğun olaraq, hüquqlarını məhkəmədə müdafiə etmək;

keyfiyyətsiz malın (işin, xidmətin) istehsalında və satışında təqsiri olan şəxslərin məsuliyyətə cəlb edilməsi barədə müvafiq icra hakimiyyəti orqanlarına müraciət etmək;

istehlakçıların hüquqları haqqında ictimaiyyətə məlumat vermək;

istehlakçıların hüquqlarının müdafiəsi haqqında beynəlxalq əməkdaşlığın inkişafına kömək göstərmək hüququna malikdir.

## *V fəsil*[36]

## *ƏHALİNİN ƏRZAQ TƏHLÜKƏSİZLİYİ*

### *Maddə 28. Əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi*

*28.1. Azərbaycan dövləti beynəlxalq hüquq normalarına uyğun olaraq əhalinin və hər bir vətəndaşın ərzaq təhlükəsizliyini təmin edir.*

*28.2. Əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.*

### *Maddə 29. Əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində dövlətin vəzifələri*

*29.1. Əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində dövlətin vəzifələri aşağıdakılardır:*

*29.1.1. qida məhsullarının istehsalının artırılması və ərzaq bazarının tənzimlənməsi sahəsində dövlət siyasətini formalaşdırmaq və həyata keçirmək;*

*29.1.2. əhalinin ərzaq təhlükəsizliyinə dair məqsədli dövlət proqramları hazırlamaq və icrasını təmin etmək;*

*29.1.3. qida məhsulları üzrə dövlət ehtiyatları yaratmaq, onların formalaşdırılmasını, saxlanılmasını, istifadəsini və tənzimlənməsini təşkil etmək;*

*29.1.4. qida məhsullarının istehsalını, istehlakını və dövriyyəsini özündə əks etdirən ərzaq balansı hazırlamaq və əhalinin qida məhsulları ilə təminatını proqnozlaşdırmaq;*

*29.1.5. ərzaq böhranı və fövqəladə hadisələr zamanı əhalinin qida məhsulları ilə təchizatını tənzimləmək, o cümlədən normativ ərzaq bölgüsünü və digər xüsusi təminat rejimlərini müəyyən etmək;*

*29.1.6. ərzaq bazarının tənzimlənməsi və qida məhsullarının minimum keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində normativ hüquqi aktlar qəbul etmək;*

*29.1.7. əhalinin qida məhsulları ilə təmin edilməsində dövlət orqanlarının və bələdiyyələrin fəaliyyətini əlaqələndirmək;*

*29.1.8. əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində digər vəzifələri həyata keçirmək.*

### *Maddə 30. Dövlət ərzaq ehtiyatları*

*30.1. Dövlət ərzaq ehtiyatları əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə yaradılır.*

*30.2. Dövlət ərzaq ehtiyatları dövlət və səfərbərlik ehtiyatlarının tərkib hissəsidir və aşağıdakı məqsədlər üçün istifadə edilir:*

*30.2.1. qanunla müəyyən edilmiş hallarda Azərbaycan Respublikasının qida məhsullarına olan ehtiyacını ödəmək;*

*30.2.2. iqtisadiyyatın sabitliyini təmin etmək məqsədilə qida sənayesinə, iqtisadiyyatın digər sahələrinə, idarələrinə və təşkilatlarına köməklik göstərmək;*

*30.2.3. ölkə əhalisinə, xarici dövlətlərə, ictimai və dini təşkilatlara humanitar yardım etmək.*

*30.3. Dövlət ərzaq ehtiyatlarının bu Qanunun 30.2.1-ci maddəsi ilə müəyyən edilmiş haldan başqa məqsədlər üçün istifadəsinə yol verilmir.*

*30.4. Dövlət ərzaq ehtiyatlarının tədarükü üçün illik büdcə proqnozlarında müvafiq vəsait həcmi nəzərdə tutulur.*

*30.5. Dövlət ərzaq ehtiyatlarına ərzaq tədarükü müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanlarla (qurumlarla) istehsalçılar arasında bağlanılmış müqavilələr əsasında həyata keçirilir.*

*30.6. Dövlət ərzaq ehtiyatları müvafiq icra hakimiyyəti orqanının müəyən etdiyi orqanın (qurumun) sərəncamında olur.*

*30.7. Dövlət ərzaq ehtiyatlarının həcmi, nomenklaturası, formalaşdırılması, saxlanılması, istifadəsi və vaxtaşırı yeniləşdirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.*

### *Maddə 31. Ərzaq bazarının dövlət tənzimlənməsi*

*31.1. Əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı zəruri tədbirlərin hazırlanıb həyata keçirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən hər il müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada ərzaq balansı tərtib olunur.*

*31.2. Ərzaq balansının tərtibi üçün fermerlər və tədarükçülər tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalına (tədarükünə) dair məlumatlar ildə bir dəfə, həmin məhsulların yetişdirildiyi istixanalar, saxlanıldığı soyuducu anbarlar və taxıl elevatorları barədə aylıq məlumatlar isə növbəti ayın 10-dək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemində müəyyən edilmiş formada həmin sistemə daxil edilməlidir.*

*31.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada müəyyən edilmiş məhsullara dair məlumatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) ərzaq balansının tərtibi ilə bağlı ildə bir dəfə verilən yazılı sorğusuna əsasən ərzaq məhsullarının istehsalı, emalı, saxlanılması, idxalı, ixracı və satışı sahəsində fəaliyyət göstərən subyektlər 15 iş günü müddətində təqdim etməlidirlər.*

*31.4. Bu Qanunun 31.2-ci və 31.3-cü maddələrində müəyyən edilmiş məlumatları təqdim etməyən şəxslər qanunla müəyyən edilmiş qaydada inzibati məsuliyyətə cəlb olunurlar.*

*31.5. Ərzaq bazarının dövlət tənzimlənməsi iqtisadi yollarla həyata keçirilir və aşağıdakıları nəzərdə tutur:*

*31.5.1. qida məhsulları istehsalının stimullaşdırılması, minimum keyfiyyət göstəricilərinin normalaşdırılması və sertifikatlaşdırılması;*

*31.5.2. qida zəncirində fəaliyyətin uçotu və nizamlanması;*

*31.5.3. ərzaq bazarında azad rəqabətin inkişaf etdirilməsi, haqsız rəqabətə yol verilməməsi və yerli istehsalçıların hüquq və mənafelərinin qorunması;*

*31.5.4. istehsalçıdan istehlakçılara çatdırılana qədər qida məhsullarının minimum keyfiyyətinə və təhlükəsizliyinə nəzarət;*

*31.5.5. ərzaq proqramlarının hazırlanmasının və həyata keçirilməsinin xarici sərmayələr də cəlb edilməklə maliyyələşdirilməsi.*

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV.**

Bakı şəhəri, 19 sentyabr 1995-ci il
№ 1113

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


**1.** 5 oktyabr 2001-ci il tarixli 183-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 11, maddə 676**)

**2.** 5 oktyabr 2001-ci il tarixli 190-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 11, maddə 683**)

3. 12 oktyabr 2001-ci il tarixli 193-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 11, maddə 686**)
4. 23 aprel 2002-ci il tarixli 311-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 5, maddə 241**)
5. 30 aprel 2002-ci il tarixli 317-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 1, maddə 1**)
6. 5 dekabr 2003-cü il tarixli 538-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 1, maddə 6**)
7. 30 dekabr 2003-cü il tarixli 568-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 2, maddə 57**)
8. 10 iyun 2005-ci il tarixli 925-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 8, maddə 684**)
9. 21 oktyabr 2005-ci il tarixli 1030-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 14 dekabr 2005-ci il, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 12, maddə 1083**)
10. 17 aprel 2007-ci il tarixli 315-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 8, maddə 745**)
11. 30 sentyabr 2011-ci il tarixli **205-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 26 noyabr 2011-ci il, № 255; "Azərbaycan" qəzeti, 27 noyabr 2011-ci il, № 262; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 11, maddə 984)**
12. 29 iyun 2012-ci il tarixli **415-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 8 sentyabr 2012-ci il, № 200, "Azərbaycan" qəzeti 12 sentyabr 2012-ci il, № 203, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, №9, maddə 842)**
13. 30 sentyabr 2014-cü il tarixli **1037-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 09 noyabr 2014-cü il, № 245, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, №10, maddə 1157)**
14. 14 aprel 2017-ci il tarixli **611-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 4 iyun 2017-ci il, № 119, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 5, maddə 722)**
15. 4 may 2018-ci il tarixli **1127-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 14 iyun 2018-ci il, № 133, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №6, maddə 1169)**
16. 28 dekabr 2018-ci il tarixli **1414-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 1 fevral 2019-cu il, № 25, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 31)**
17. 12 iyul 2019-cu il tarixli **1663-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 16 avqust 2019-cu il, № 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №8, maddə 1384)**
18. 30 dekabr 2022-ci il tarixli **789-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 20 fevral 2023-cü il, "Azərbaycan" qəzeti, 21 fevral 2023-cüil, № 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 2, maddə 210)**
19. 17 fevral 2023-cü il tarixli **817-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 8 aprel 2023-cü il, "Azərbaycan" qəzeti, 9 aprel 2023-cü il, № 73)**

**QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

[1] 30 dekabr 2022-ci il tarixli **789-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 20 fevral 2023-cü il, "Azərbaycan" qəzeti, 21 fevral2023-cü il, № 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 2, maddə 210)** ilə preambulada "**habelə istehlakçıların hüquqlarının müdafiəsinin ümumi hüquqi, iqtisadi və sosial**" sözləri "**istehlakçıların hüquqlarının müdafiəsinin ümumi hüquqi, iqtisadi və sosial əsaslarını, habelə əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsinin hüquqi**" sözləri ilə əvəz edilmişdir.

[2] 14 aprel 2017-ci il tarixli **611-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 4 iyun 2017-ci il, № 119, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 5, maddə 722)** ilə 1-ci maddəsinin doqquzuncu abzasında "**məhsulun müəyyən edilmiş tələblərə**" sözləri və onuncu abzasında "**məhsulun, prosesin, yaxud xidmətin təsdiq edilmiş tələblərə**" sözləri "**malın (xidmətin, işin), prosesin, idarəetmə sisteminin və işçi heyətinin müvafiq standartda, texniki reqlamentdə və digər normativ hüquqi aktda müəyyən olunmuş tələblərə**" sözləri ilə əvəz edilmişdir.

[3] 29 iyun 2012-ci il tarixli **415-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 8 sentyabr 2012-ci il, № 200, "Azərbaycan" qəzeti 12 sentyabr 2012-ci il, № 203, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, №9, maddə 842)** ilə 1-ci maddənin birinci hissəsinə on üçüncü bənd əlavə edilmişdir.

[4] 30 dekabr 2022-ci il tarixli **789-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 20 fevral 2023-cü il, "Azərbaycan" qəzeti, 21 fevral2023-cü il, № 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 2, maddə 210)** ilə 1-ci maddənin on üçüncü abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeniməzmunda on dördüncü abzas əlavə edilmişdir.

[5] 17 aprel 2007-ci il tarixli 315-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 8, maddə 745**) ilə 2-ci maddənin birinci hissəsində "bu Qanundan" sözlərindən əvvəl "Azərbaycan Respublikasının Mülki Məcəlləsindən, " sözləri əlavə edilmişdir.

30 dekabr 2022-ci il tarixli **789-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 20 fevral 2023-cü il, "Azərbaycan" qəzeti, 21 fevral 2023-cü il, № 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 2, maddə 210)** ilə 2-ci maddənin birinci abzasına "**Məcəlləsindən**," sözündən sonra "**Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanunundan**," sözləri əlavə edilmişdir.

[6] 28 dekabr 2018-ci il tarixli **1414-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 1 fevral 2019-cu il, № 25, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 31)** ilə 2-ci maddəyə yeni məzmunda üçüncü hissə əlavə edilmişdir.

[7] 30 dekabr 2022-ci il tarixli **789-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 20 fevral 2023-cü il, "Azərbaycan" qəzeti, 21 fevral2023-cü il, № 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 2, maddə 210)** ilə 6-cı maddənin 2-ci hissəsinin ikinci abzasında "**ərzaq**" sözü "**qida**" sözü ilə əvəz edilmişdir.

[8] 23 aprel 2002-ci il tarixli 311-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 5, maddə 241**) ilə 6-cı maddənin 2-ci bəndinin sonuncu hissəsində "**malın satıldığı gündən**" sözləri "**əgər alqı-satqı müqaviləsində ayrı müddət nəzərdə tutulmayıbsa, malın istehlakçıya verildiyi məqamdan**" sözləri ilə əvəz edilmişdir.

[9] 23 aprel 2002-ci il tarixli 311-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 5, maddə 241**) ilə 6-cı maddənin 3-cü bəndində "**3 ildən**" sözləri "**Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilmiş müddətdən**" sözləri ilə əvəz edilmişdir.

17 aprel 2007-ci il tarixli 315-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 8, maddə 745**) ilə 6-cı maddənin 3-cü bəndində "qüsurlar barədə" sözlərindən sonra ", əgər müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, " sözləri əlavə edilmişdir.

[10] 30 dekabr 2022-ci il tarixli **789-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 20 fevral 2023-cü il, "Azərbaycan" qəzeti, 21 fevral2023-cü il, № 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 2, maddə 210)** ilə 6-cı maddənin 2-ci hissəsinin ikinci abzasında "**ərzaq**" sözü "**qida**" sözü ilə əvəz edilmişdir.

[11] 17 aprel 2007-ci il tarixli 315-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 8, maddə 745**) ilə 8-ci maddənin birinci cümləsində "xidmət göstərilməsi üçün" sözlərindən sonra "qeyri-bərabər şərt təklif etmədən" sözləri əlavə edilmişdir.

[12] 29 iyun 2012-ci il tarixli **415-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 8 sentyabr 2012-ci il, № 200, "Azərbaycan" qəzeti 12 sentyabr 2012-ci il, № 203, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, №9, maddə 842)** ilə 10-cu maddəyə 1-ci hissə əlavə edilmişdir və 1-8-ci hissələr müvafiq olaraq 2-9-cu hissələr hesab edilmişdir.

[13] 30 dekabr 2022-ci il tarixli **789-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 20 fevral 2023-cü il, "Azərbaycan" qəzeti, 21 fevral2023-cü il, № 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 2, maddə 210)** ilə 10-cu maddənin 6-cı hissəsinin ikinci abzasının üçüncü cümləsində "**ərzaq xammalı və məhsulları**" sözləri "**qida məhsulları**" sözləri ilə, "**təkrar emal**" sözləri "**utilizasiya**" sözü ilə əvəz edilsin və həmin cümləyə "**yararsız**" sözündən sonra "**və təhlükəli**" sözləri əlavə edilmişdir.

[14] 17 aprel 2007-ci il tarixli 315-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 8, maddə 745**) ilə 11-ci maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilmişdir.

[15] 30 dekabr 2022-ci il tarixli **789-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 20 fevral 2023-cü il, "Azərbaycan" qəzeti, 21 fevral2023-cü il, № 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 2, maddə 210)** ilə 13-cü maddənin 1-ci hissənin birinci abzasında **"ərzaq malları**" sözləri "**qida** məhsulları" sözləri ilə, "**tərkibi, yararlılıq müddəti, kaloriliyi, sağlamlıq üçün zərərli maddələrin normativ sənədlərin tələbləri ilə müqayisəli miqdarı**" sözləri "**qida və enerji dəyəri, tərkibi, miqdarı, keyfiyyət göstəriciləri, istehsal tarixi, yararlılıq müddəti, tərkibindəki allergenlər, mənşəyi**" sözləri ilə əvəz edilmişdir.

[16] 5 dekabr 2003-cü il tarixli 538-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 1, maddə 6**) ilə 13-cü maddənin 1-ci bəndinə üçüncü abzas əlavə edilmişdir.

[17] 21 oktyabr 2005-ci il tarixli 1030-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("**Azərbaycan" qəzeti, 14 dekabr 2005-ci il, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 12, maddə 1083**) ilə 13-cü maddənin 1-ci bəndinə dördüncü abzas əlavə edilmişdir.

[18] 12 oktyabr 2001-ci il tarixli 193-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 11, maddə 686**) ilə 13-cü maddənin 3-cü bəndinin birinci cümləsində "**mal nişanı və ya xidmət nişanı**" sözləri "**əmtəə nişanı və ya coğrafi göstərici**" sözləri ilə əvəz edilmişdir.

30 dekabr 2022-ci il tarixli **789-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 20 fevral 2023-cü il, "Azərbaycan" qəzeti, 21 fevral 2023-cü il, № 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 2, maddə 210)** ilə 13-cü maddənin 3-cü hissəyə yeni məzmunda beşinci cümlə əlavə edilmişdir.

[19] 4 may 2018-ci il tarixli **1127-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 14 iyun 2018-ci il, № 133, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №6, maddə 1169)** ilə 13-cü maddənin 5-ci və 6-cı hissələri yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~5. Məcburi sertifikasiya edilməli olan, lakin uyğunluq sertifikatı olmayan məhsulun reklamı qadağandır.~~

~~6. Haqsız reklam olunan malın (işin, xidmətin) alınması nəticəsində istehlakçıya vurulan zərər təqsirkar şəxslər tərəfindən tam həcmdə ödənilməlidir.~~

[20] 4 may 2018-ci il tarixli **1127-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 14 iyun 2018-ci il, № 133, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №6, maddə 1169)** ilə 13-cü maddənin 7-ci hissəsində "**haqsız**" sözündən sonra "**, qeyri-dəqiq və gizli**" sözləri əlavə edilmişdir.

[21] 30 dekabr 2022-ci il tarixli **789-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 20 fevral 2023-cü il, "Azərbaycan" qəzeti, 21 fevral2023-cü il, № 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 2, maddə 210)** ilə 15-ci maddənin 1-ci hissəsinin birinci abzasında "**qeyri-ərzaq**" sözləri "**qeyri-qida**" sözləri ilə əvəz edilmişdir.

[22] 23 aprel 2002-ci il tarixli 311-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 5, maddə 241**) ilə 15-ci maddənin 1-ci bəndinin ikinci abzasına ikinci cümlə əlavə edilmişdir.

[23] 30 sentyabr 2011-ci il tarixli **205-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 26 noyabr 2011-ci il, № 255; "Azərbaycan" qəzeti, 27 noyabr 2011-ci il, № 262; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 11, maddə 984)** ilə 17-ci maddəsinə ikinci, üçüncü və dördüncü hissələr əlavə edilmişdir.

[24] 17 aprel 2007-ci il tarixli 315-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 8, maddə 745**) ilə 18-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~M a d d ə 18. **İstehlakçıların hüquqlarının dövlət müdafiəsi**~~

~~1. Dövlət istehlakçıların mənafelərinin müdafiəsinə təminat verir, malların (işlərin, xidmətlərin) azad seçilməsinə imkan yaradır, insanların sağlamlığını və həyat tərzini lazımi səviyyədə təmin etmək məqsədi ilə malların alınmasına və ya digər qanuni yolla təmin edilməsinə zəmanət verir.~~

~~2. İstehlakçıların hüquqlarının dövlət müdafiəsini Azərbaycan Respublikasında istehlakçılar üçün nəzərdə tutulan malların (işlərin, xidmətlərin) keyfiyyətinə, təhlükəsizliyinə və istehlakçıların qanunla qorunan başqa hüquqlarının müdafiəsinə nəzarət edən müvafiq icra hakimiyyəti orqanları və məhkəmə öz səlahiyyətləri hüdudlarında həyata keçirirlər.~~

[25] 12 iyul 2019-cu il tarixli **1663-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 16 avqust 2019-cu il, № 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №8, maddə 1384)** ilə 18.0.1-ci maddədən "**yeyinti məhsullarının və**" sözləri çıxarılmışdır və həmin maddəyə "**qaydalarına**" sözündən sonra "**, yeyinti məhsullarının isə qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara**" sözləri əlavə edilmişdir.

30 dekabr 2022-ci il tarixli **789-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 20 fevral 2023-cü il, "Azərbaycan" qəzeti, 21 fevral 2023-cü il, № 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 2, maddə 210)** ilə 18.0.1-ci maddədə "**yeyinti**" sözü "**qida**" sözü ilə əvəz edilmişdir.

[26] 4 may 2018-ci il tarixli **1127-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 14 iyun 2018-ci il, № 133, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №6, maddə 1169)** ilə 18.0.5-ci maddədə "**yolverilməz**" sözü "**haqsız, qeyri-dəqiq və gizli**" sözləri ilə, "**reklamçılar**" sözü "**reklamverici, reklam yaradıcısı, reklam istehsalçısı, reklam yayıcısı və reklam agenti**" sözləri ilə əvəz edilmişdir.

[27] 4 may 2018-ci il tarixli **1127-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 14 iyun 2018-ci il, № 133, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №6, maddə 1169)** ilə 18.0.6-cı maddədə "**reklamçı**" sözü "**reklam fəaliyyətinin subyekti**" sözləri ilə əvəz edilmişdir.

[28] 17 aprel 2007-ci il tarixli 315-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 8, maddə 745**) ilə 19-cu maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~M a d d ə 19. **İstehlakçılar üçün nəzərdə tutulan malların (işlərin, xidmətlərin) keyfiyyətinə və təhlükəsizliyinə nəzarət edən dövlət orqanlarının səlahiyyətləri**~~

~~1. Azərbaycan Respublikasında malların (işlərin, xidmətlərin) keyfiyyətinə və təhlükəsizliyinə nəzarəti həyata keçirən müvafiq dövlət icra hakimiyyəti orqanları malların (işlərin, xidmətlərin) keyfiyyətini və təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyənləşdirilmiş səlahiyyətlər çərçivəsində:~~

~~malların (işlərin, xidmətlərin) təhlükəsizliyi üzrə məcburi tələblər müəyyənləşdirir və bu tələblərə riayət olunmasına nəzarəti həyata keçirirlər;~~

malların (işlərin, xidmətlərin) təhlükəsizliyi üzrə tələblərin pozulmasının aradan qaldırılması, istehsalatdan çıxarılması, belə malların (işlərin, xidmətlərin) istehsalının dayandırılması və realizə olunması, onların istehlakçıdan geri alınması, həmçinin istehlakçıya bütün bunlar haqqında informasiya verilməsi haqqında göstərişlər verirlər;

istehlak malları (işləri, xidmətləri) bazarında haqsız rəqabətin və təsərrüfat subyektlərinin inhisarçı fəaliyyətinin qarşısını alırlar;

istehlakçıların hüquqlarının müdafiəsi haqqında Azərbaycan Respublikası qanunvericiliyinin tətbiq olunması məsələləri üzrə rəsmi izahatlar verirlər;

insanların sağlamlığının təhlükəsizliyini təmin edən məhsulların xüsusiyyətlərini və sanitariya-gigiyenik göstəricilərini normallaşdırırlar;

insanların sağlamlığı üçün təhlükə yarada bilən məhsulların normativ-texniki sənədlərinin razılaşdırılmasını və istehsal mərhələsində icrası məcburi olan gigiyenik sertifikasiyasını həyata keçirirlər;

təhlükəsizlik göstəricilərinə görə normativ-texniki sənədlərin tələblərinə cavab verməyən məhsulların sınaq müayinələrinin cavablarına əsasən sonrakı istifadəsi barədə müvafiq qərar qəbul edirlər;

yeni texnoloji proseslərin, materialların, maddələrin və məmulatların istehsalını, istifadəsini və satışını razılaşdırırlar;

məhsulların (işlərin, xidmətlərin) gigiyenik, ekoloji, seysmoloji, radioloji, hormonal, farmakoloji və toksikoloji qiymətləndirilməsinin metodikalarını, eləcə də zərərli amillərin səviyyəsinin gigiyenik göstəricilərinin və xüsusiyyətlərinin tədqiqi üsullarını təsdiq edirlər;

mülkiyyət formasından asılı olmayaraq Azərbaycan Respublikası ərazisində ticarət, ictimai iaşə və xidmət müəssisələrində malların (işlərin, xidmətlərin) keyfiyyətinə, təhlükəsizlik tələblərinə, habelə ticarət və xidmət göstərilməsi qaydalarına düzgün əməl olunması barədə nəzarəti yoxlamalar aparırlar. Lazım olan hallarda malların, xammalların, yarımfabrikatların, komplektləşdirmə materiallarının keyfiyyətini yerində yoxlayır və ya müvafiq laboratoriyalarda sərbəst ekspertiza keçirmək məqsədi ilə onlardan nümunələr götürürlər. Həmin nümunələrin dəyəri və aparılmış təhlillərin (ekspertizaların) xərcləri yoxlanılan təsərrüfat subyektlərinin hesabına ödənilir və onların istehsal-təsərrüfat xərclərinə aid edilir;

istehlakçıların hüquqlarının pozulmasına son qoyulması barədə təsərrüfat subyektlərinə icrası məcburi göstərişlər verir, yoxlanılan subyektlərdən malların keyfiyyətini xarakterizə edən normativ sənədləri və digər lazım olan məlumatları alırlar;

aşkar olunmuş qüsurlar təsərrüfat subyektləri tərəfindən aradan qaldırılanadək normativ sənədlərin tələblərinə cavab verməyən malların (işlərin, xidmətlərin) göndərilməsini, satışını və icrasını dayandırırlar;

qanunvericilikdə nəzərdə tutulmuş hallarda təqsirkar şəxslərə inzibati tənbeh tədbirləri tətbiq edirlər, cinayət əlamətləri olan yoxlama materiallarını hüquq-mühafizə orqanlarına göndərirlər;

istehlakçıların hüquqlarının müdafiəsinə dair müvafiq məhkəmələr qarşısında iddia qaldırırlar.

2. Azərbaycan Respublikasında malların (işlərin, xidmətlərin) sertifikatlaşdırılması üzrə milli orqan:

malların (işlərin, xidmətlərin) sertifikatlaşdırılması qaydalarını müəyyənləşdirir;

məcburi sertifikatlaşdırılmalı malların (işlərin, xidmətlərin) nomenklaturunu müəyyənləşdirir;

konkret mal (iş, xidmət) növlərinin sertifikatlaşdırılması üzrə orqanları, həmçinin müvafiq sınaqların aparılması üçün sınaq laboratoriyalarını (mərkəzlərini) akkreditasiya edir, digər hüquqi şəxslərə akkreditasiyanı keçirmək hüququnu həvalə edir;

malların (işlərin, xidmətlərin) sertifikatlaşdırılmasının aparılmasının düzgünlüyünə nəzarəti həyata keçirir;

sertifikatlaşdırılmış malların (işlərin, xidmətlərin), sertifikatlaşdırma üzrə akkreditasiya olunmuş orqanların, sınaq laboratoriyalarının (mərkəzlərinin) dövlət reyestrini aparır;

xarici və beynəlxalq orqanların verdiyi sertifikatların tanınması barədə qərar qəbul edir;

malların (işlərin, xidmətlərin) sertifikatlaşdırılması məsələləri üzrə xarici ölkələrlə və beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqələrdə Azərbaycan Respublikasını təmsil edir.

~~3. Malların (işlərin, xidmətlərin) keyfiyyətinə və təhlükəsizliyinə nəzarəti həyata keçirən dövlət icra hakimiyyəti orqanlarının bu sahədə fəaliyyətlərini koordinasiya etmək standartlaşdırma və metrologiya sahəsində fəaliyyət göstərən müvafiq dövlət icra hakimiyyəti orqanına həvalə olunur.~~

[29] 12 iyul 2019-cu il tarixli **1663-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 16 avqust 2019-cu il, № 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №8, maddə 1384)** ilə 19.2.3-cü maddədə "**müvafiq standartların, texniki şərtlərin**" sözləri "**texniki normativ hüquqi aktların**" sözləri ilə əvəz edilmişdir.

[30] 17 fevral 2023-cü il tarixli **817-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 8 aprel 2023-cü il, "Azərbaycan" qəzeti, 9 aprel 2023-cü il, № 73)** ilə 19.2.5-ci maddədə "**kütləvi informasiya vasitələrində**" sözləri "**mediada**" sözü ilə əvəz edilmişdir.

[31] 30 sentyabr 2014-cü il tarixli **1037-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 09 noyabr 2014-cü il, № 245, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, №10, maddə 1157)** ilə 19.2.6-cı maddəsindən ikinci cümlə çıxarılmışdır.

[32] 30 dekabr 2022-ci il tarixli **789-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 20 fevral 2023-cü il, "Azərbaycan" qəzeti, 21 fevral2023-cü il, № 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 2, maddə 210)** ilə 19.2.7-ci maddədə "**ərzaq**" sözü "**qida**" sözü ilə əvəz edilmişdir.

[33] 5 oktyabr 2001-ci il tarixli 183-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 11, maddə 676**) ilə 21-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~M a d d ə 21. **İstehlakçıların hüquqlarının müdafiəsini həyata keçirən dövlət icra hakimiyyəti orqanlarının vəzifəli şəxslərinin vəzifə və məsuliyyətləri**~~

~~İstehlakçıların hüquqlarının müdafiəsini həyata keçirən dövlət icra hakimiyyəti orqanlarının vəzifəli şəxsləri Azərbaycan Respublikasının qanunvericiliyini, həmçinin vətəndaşların, müəssisələrin, idarələrin və təşkilatların qanunla müdafiə olunan hüquqlarını qorumalıdırlar.~~

~~Onlar öz səlahiyyətlərini yerinə yetirərkən əldə olunmuş dövlət və qanunla qorunan digər sirləri yaymamalıdırlar. Vəzifəli şəxslər öz vəzifələrini yerinə yetirmədikdə və ya lazımınca yerinə yetirmədikdə, öz səlahiyyətlərini aşdıqda qüvvədə olan qanunvericiliyə əsasən məsuliyyətə cəlb olunurlar.~~

[34] 30 dekabr 2003-cü il tarixli 568-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 2, maddə 57**) ilə 25-ci maddə çıxarılmışdır.

Əvvəlki redaksiyada deyilirdi:

~~M a d d ə 25. **İstehlakçıların hüquqlarının müdafiəsini həyata keçirən dövlət icra hakimiyyəti orqanları tərəfindən tətbiq edilən sanksiyalar**~~

~~1. Azərbaycan Respublikasında istehlakçıların hüquqlarının müdafiəsini həyata keçirən dövlət icra hakimiyyəti orqanları öz səlahiyyətləri çərçivəsində istehlakçıların hüquqlarının müdafiəsi haqqında qanunvericiliyi pozduğuna görə günahkar şəxslərə aşağıda göstərilən sanksiyaları tətbiq edirlər:~~

~~bu qanunun 7-ci maddəsinin birinci bəndində müəyyən edilmiş istehlakçıların hüquqlarının yerinə yetirilməsindən imtina etdikdə—bu malın dəyərinin beş misli həcmində;~~

istehlakçıların hüquqlarının pozulmasının aradan qaldırılması haqqında müvafiq dövlət orqanının icrası məcburi olan göstərişi yerinə yetirilmədikdə—vurulmuş zərəri ödəməklə onun həcmi miqdarında bu zərəri müəyyən etmək mümkün olmadıqda minimum əmək haqqının 100 mislinədək;

normativ sənədlərin tələblərinə cavab verməyən malların istehsalına, satılmasına, işlərin yerinə yetirilməsinə, xidmətlərin göstərilməsinə görə—satılmış malların, yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin qiymətinin 25 faizi miqdarında;

məcburi sertifikatlaşdırılmalı, lakin sertifikatlaşdırılmamış malların satılması, işlərin yerinə yetirilməsi, xidmətlərin göstərilməsinə görə—satılmış malların, yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin qiymətinin 25 faizi miqdarında;

standartların, digər normativ sənədlərin tələblərinin pozulması nəticəsində insanın həyatı, sağlamlığı və əmlakı və həmçinin ətraf mühit üçün təhlükəli məhsulun (işin, xidmətin) buraxılması (görülməsi) və satılması üçün—buraxılmış (görülmüş) və satılmış məhsulun qiymətinin 100 faizi miqdarında;

insanların həyatının, sağlamlığının, əmlakının və ətraf mühitin təhlükəsizliyinə dair Azərbaycan Respublikasında qüvvədə olan standartların, digər normativ sənədlərin tələblərinə uyğun olmayan xaricdən gətirilmiş malın satılmasına görə—satılmış malların qiymətinin 50 faizi miqdarında;

buraxılması və satılması qadağan olunmuş malların satılması, işlərin yerinə yetirilməsi, xidmətlərin göstərilməsinə görə—satılmış malların, yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin qiymətinin 100 faizi miqdarında;

lazımi xəbərdarlıq nişanı olmayan, həmçinin təhlükəsiz istifadə qaydaları və şəraiti barədə məlumat vərəqi olmadan satılan təhlükəli mallara (zəhərlər, kimyəvi preparatlar, partlayıcı və yanğın təhlükəli maddələr və s.) görə—satılmış malların qiymətinin 50 faizi miqdarında;

nəzarət olunmalı məhsulun müvafiq dövlət nəzarəti orqanlarından gizlədilməsinə görə—satılmış malların, görülmüş işlərin, göstərilmiş xidmətlərin qiymətinin 100 faizi miqdarında;

malların (işlərin, xidmətlərin) sertifikatlaşdırma qaydalarının sertifikatlaşdırma üzrə orqan və sınaq laboratoriyaları (mərkəzləri) tərəfindən pozulmasına görə—sertifikatlaşdırma üzrə işlərin qiymətinin 2 misli miqdarında, istehsalçı (icraçı, satıcı) tərəfindən pozulmasına görə isə—sertifikatlaşdırma qaydası pozulmaqla satılmış malların (işlərin, xidmətlərin) qiyməti miqdarında.

Sertifikatlaşdırma üzrə müəssisə və orqanların rəhbərləri yuxarıda göstərilmiş pozuntulara görə məsuliyyət daşıyır və vəzifə maaşının 3 misli miqdarında cərimə olunurlar.

Bu maddədə nəzərdə tutulmuş cərimənin ödənilməsi istehsalçını (icraçını, satıcını) standartların, normaların, qaydaların pozulması, müqavilə şərtlərinin yerinə yetirilməməsi nəticəsində istehlakçılara dəymiş ziyanın ödənilməsindən azad etmir.

2. Cərimələrin 50 faizi dövlət büdcəsinə, 35 faizi yerli büdcəyə, 15 faizi isə cəriməni tətbiq edən istehlakçıların hüquqlarının müdafiəsi üzrə dövlət orqanlarının hesabına köçürülür.

3. Malların (işlərin, xidmətlərin) istehsalçıları (icraçıları, satıcıları) istehlakçıların hüquqlarının müdafiəsini həyata keçirən dövlət orqanları göstərişlərinin tamamilə, yaxud qismən etibarsız sayılması, ya da cərimə qoyulması haqqında qərarın ləğvi, yaxud dəyişdirilməsi barədə məhkəməyə müraciət etmək hüquqları vardır.

Verilmiş ərizəyə məhkəmə tərəfindən baxıldığı dövrdə məhkəmə, göstərilən aktların icrasının dayandırılması haqqında qərar çıxarmayıbsa, göstərişlər və cərimə qoyulması haqqında qərarlar dayandırılmır.

[35] 10 iyun 2005-ci il tarixli 925-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 8, maddə 684**) ilə 27-ci maddənin 1-ci bəndinin ikinci abzasında "**İctimai birliklər haqqında" Azərbaycan Respublikasının Qanunu**" sözləri "**müvafiq qanunvericilik**" sözləri ilə əvəz edilmişdir.

[36] 30 dekabr 2022-ci il tarixli **789-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 20 fevral 2023-cü il, "Azərbaycan" qəzeti, 21 fevral2023-cü il, № 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 2, maddə 210)** ilə yeni məzmunda V fəsil əlavə edilmişdir.